# Davamlı sülh - ümumbəşəri dəyərdir



**Professor Elmira SÜLEYMANOVA, Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman).**

Azadlıq, bərabərlik və ədalətlə yanaşı, sülh hər bir cəmiyyətin, ümumiyyətlə, bəşəriyyətin ən çox arzu etdiyi dəyərlərdəndir. Sülh - həyat, yaşamaq, sağlam nəsillər deməkdir. Bütün bunların toplumu ayrı-ayrı ölkələrdə, dünyada, davamlı inkişaf, qarşılıqlı əməkdaşlıq deməkdir. Azərbaycanda sülhün bərqərar olunması isə regionda davamlı sülhün təmin olunması deməkdir.

İnsan hüquqları, sülh və dözümlülük mədəniyyətinin təbliği, əhalinin hüquqi cəhətdən maarifləndirilməsi, onların hüquqi düşüncə və mədəniyyətinin günün tələbləri səviyyəsində inkişaf etdirilməsi demokratik-hüquqi dövlətin və vətəndaş cəmiyyətinin qurulması prosesinə təkan verən ən mühüm amillərdəndir.

Məlum olduğu kimi, 1981-ci ildən 21 sentyabr tarixi bütün dünyada "Beynəlxalq Sülh Günü" kimi qeyd olunur. Sülh günü nəinki xalqlar arasında, həmçinin ailələrdə, cəmiyyətdə, ictimaiyyətdə münasibətlərin sağlamlaşmasına, zorakılığa qarşı mübarizənin gücləndirilməsinə nail olmaq üçün bir imkandır.

Bu baxımdan hər il ənənəvi olaraq, Ombudsmanın təşəbbüsü ilə elan olunan "İnsan hüquqları aylığı", "Uşaq hüquqları aylığı" ilə yanaşı, "Sülh aylığı" əhalinin hüquqi maarifləndirilməsi işinə mühüm töhfələr verməklə, ölkəmizdə insan hüquqları sahəsində müsbət təcrübə formalaşdırır.

Ombudsmanın təşəbbüsü ilə 21 avqust - 21 sentyabr tarixlərində elan olunan, ənənəvi xarakter daşıyan "Sülh aylığı" da əhalinin müxtəlif qrupları arasında hüquq mədəniyyətinin, hüquq düşüncəsinin inkişaf etdirilməsi məqsədini daşımaqla universal dəyərlərin, insan hüquqlarının təbliğinə xidmət edir.

Ulu öndər Heydər Əliyevin layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən islahatlar, sülhsevər xarici siyasət kursunun əsas leytmotivini dünyada ərazi bütövlüyü prinsiplərinə sadiqlik, siyasi müstəqilliyə qarşı güc tətbiq etmənin yolverilməzliyi, terrorçuluğun bütün təzahürlərinə qarşı barışmazlıq, dinlərarası dialoqun, multikulturalizmin inkişafı sahəsində beynəlxalq əməkdaşlığın gücləndirilməsi, ölkəmizin ərazisində xarici ölkələrin hərbi qüvvələrinin digər ölkələrin təhlükəsizliyinə təhdid vasitəsi kimi istifadə edilməsinin qeyri-mümkünlüyü, insan hüquq və azadlıqlarına hörmət kimi sülhsevər prinsiplər təşkil edir.

Azərbaycan xalqının Beynəlxalq Sülh Gününü qeyd etməsi isə, təbii ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllindən keçir. Beynəlxalq vasitəçilərin apardıqları sülh danışıqlarının səmərə verməməsi regionda təhlükəsizliyin təminatına əngəl yaratmaqdadır. Ölkə başçısının istər beynəlxalq tribunalardan, istərsə də doğma yurd-yuvasını itirmiş bir milyondan çox qaçqın və məcburi köçkünlərin icmaları ilə hər dəfə görüşəndə səsləndirdiyi və bəyan etdiyi kimi, NATO-nun "Sülh Naminə Tərəfdaşlıq" Proqramına qoşulan respublikamız münaqişənin dinc vasitələrlə, beynəlxalq norma və prinsiplər əsasında, sülh yolu ilə həllinə tərəfdar olduğunu dəfələrlə təsdiqləsə də, təcavüzkar Ermənistan tamamilə bunun əksini göstərməkdədir. 1994-cü ildən ümummilli liderimiz Heydər Əliyevin təşəbbüsü ilə münaqişə tərəfləri arasında atəşkəs rejimi elan olunsa da, buna ermənilər tərəfindən əməl edilmir. Son zamanlar, cəbhə bölgəsində baş verən hadisələr, təxribatlar, xüsusilə də mülki əhaliyə qarşı silahlı hücumlar ermənilərin təcavüzkar və sülhə yönəlməyən siyasət yürütdüklərini bir daha sübut edir.

Qeyd olunmalıdır ki, ölkə Prezidenti sülhün dünyada bərqərar olmasına, münaqişənin beynəlxalq hüququn prinsipləri çərçivəsində həllinə çalışır və dünya dövlətlərini, beynəlxalq təşkilatları bu həqiqətlərə hüquqi qiymət verməyə, sülhə aparan yolda birliyə və qarşılıqlı əməkdaşlığa dəvət edir.

Ölkə başçısı cənab İlham Əliyevin siyasəti nəticəsində ölkəmizdə insan hüquqlarının davamlı inkişafı və təmin olunması istiqamətində müvafiq qanunvericilik aktları qəbul olunur, zəruri tədbirlər həyata keçirilir. Ölkəmiz günü-gündən inkişaf edir, beynəlxalq aləmdə nüfuzu artır. Həyata keçirilən tədbirlər və islahatlar, idarəetmənin təkmilləşməsi insanların öz hüquqlarının həyata keçirməsi üçün böyük imkanlar yaradır. Bu səbəbdən də ölkəmizə beynəlxalq aləmin marağı daha da artır və ölkəmizdə bir sıra beynəlxalq tədbirlər uğurla həyata keçirilir.

Respublikamızda keçirilən I Avropa Oyunları, Beynəlxalq Humanitar Forumlar, Davos İqtisadi Forumu, Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu, Avropa Şurasına üzv Ölkələrin Mədəniyyət Nazirlərinin Toplantısı, İslam Əməkdaşlığı Təşkilatına üzv Ölkələrin Nazirlərinin Toplantısı, Dünya Dinləri Liderlərinin Zirvə Görüşləri əlamətdar hadisə, uğurlu ölkə təcrübəsi formalaşdırmaqla yanaşı, sivilizasiyalararası dialoqa, regionda əldə edilən irəliləyişlərə dəstək, gələcək strateji hədəflərə qlobal yanaşma üçün mühüm töhfədir.

Tarixən Olimpiya Oyunları sülhün əsas simvollarından biri hesab olunub və bu gün də bu belədir. Heç də təsadüfi deyildir ki, tarixin müxtəlif dönəmlərində məhz olimpiya oyunlarının keçirildiyi müddətdə bütün müharibələr dayandırılırdı. I Avropa Oyunlarının Azərbaycanda keçirilməsi həqiqətən də respublikamızın sülh və sabitlik adası olduğunu bütün dünyaya nümayiş etdirmiş oldu.

Dövlət və hökumət başçılarının, 50 ölkədən 6.000-dən çox idmançının iştirakı ilə keçirilən və dünya ölkələrində yayımlanan açılış mərasimində I Avropa Oyunlarının Təşkilat Komitəsinin sədri, Azərbaycanın birinci xanımı Mehriban Əliyeva çıxış edərək, son 24 il ərzində ölkəmizdə sürətli inkişaf, irəliləyiş və müasirləşmənin müşahidə olunduğunu, ölkəmizin zəngin tarixə, mədəniyyətə və adət-ənənələrə sadiq qaldığını, multikulturalizm və tolerantlıq, dostluq və qonaqpərvərlik, ahəngdarlıq və həmrəyliyin həyat tərziminin ayrılmaz hissəsi olduğunu qeyd etmişdir. Sevindirici haldır ki, bu Oyunlarda idmançılarımızın uğurlu nəticələrinə görə ölkəmiz iştirakçı dövlətlər arasında ikinci yeri tutmuşdur.

Qitənin ən böyük idman yarışı da insan hüquqlarına hörmət, ədalət, sülh və tolerantlıq prinsipləri əsasında keçirilmişdir.

Ümumdünya İnsan Hüquqları Bəyannaməsində, insan hüquqlarına dair bir sıra universal və regional beynəlxalq hüquqi aktlarda öz əksini tapmış, insan hüquqlarının tərkib hissəsi kimi, kollektiv hüquqlardan olan sülh hüququ geniş anlam ifadə etməklə yanaşı bütün xalqlar və cəmiyyətimiz üçün firavan, əmin-amanlıq, müharibəsiz, zorakılıqlarsız mədəniyyəti ehtiva edir.

Yaşadığımız bu minilliyi insanlar sülh dövrü kimi və münaqişəsiz görmək istəyirdilər. Amma indi biz daha təhlükəli olan və müxtəlif mədəniyyətlərə, irqlərə və dinlərə mənsub insanlar arasında nifrət hissi oyadan təhlükəli ədavətin astanasında dayanmışıq.

Hazırda dünya ölkələri və beynəlxalq təşkilatlar tərəfindən həyata keçirilən ikili standartlar nəticəsində müsəlman dövlətləri münaqişə ocaqlarına çevrilir, əhalisi, mədəniyyəti, iqtisadiyyatı ağır itkilərə məruz qalır. Bu baxımdan XX əsrdə tarixin ən dəhşətli səhifələrindən biri də genosid siyasətinin davamı olaraq Ermənistanın Azərbaycana qarşı 25 ildən çox davam edən təcavüzüdür. Bu işğal siyasəti nəticəsində on minlərlə soydaşımız ermənilər tərəfindən törədilən soyqırımı aktlarının, kütləvi qırğınların və etnik təmizləmənin qurbanı olmuş, minlərlə yaşayış məntəqəsi, təhsil, səhiyyə və digər ictimai obyektlər, habelə tarixi-mədəni abidələr məhv edilmişdir. Eyni zamanda minlərlə soydaşımız itkin düşmüş, əsir və girov götürülmüş, atəşkəs rejiminə baxmayaraq bu proses bu gün də davam edir, uşaqlar, qadınlar, qocalar və bütövlükdə əhali uzun müddətdir ki, bu silahlı münaqişədən əziyyət çəkir.

Dinc əhalinin vəhşicəsinə kütləvi qırğını insanlığa qarşı ən ağır cinayətlərdən biri olmaqla, Xocalı soyqırımı XX əsrin Xatın, Sonqmi, Liditse, Babiy Yar kimi dəhşətli faciələrin sırasına düşdü.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev siyasi hakimiyyətə qayıdışı ilə Xocalı soyqırımının əsl mahiyyəti açıqlanmış və 1994-cü ilin fevralında Azərbaycan Respublikasının Milli Məclisində Xocalı soyqırımına hüquqi-siyasi qiymət verilmişdir.

Ölkə səviyyəsində bu siyasi kurs davam etdirilməklə yanaşı, Azərbaycan Respublikası Prezidenti İlham Əliyev bu münaqişənin yalnız ölkəmizin ərazi bütövlüyü çərçivəsində həllinin, zəbt edilmiş Azərbaycan torpaqlarından işğalçı qüvvələrin çıxarılmasının zəruriliyini vurğulamaqla yanaşı, Xocalı soyqırımının tanınmasını qətiyyətlə tələb edir.

Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri Mehriban Əliyevanın təşəbbüsü ilə bəşəriyyətin ən böyük faciələrindən olan Xocalı soyqırımı haqqında faktların dünyaya çatdırılması istiqamətində çox sistemli və ardıcıl işlər görülür. Eyni zamanda, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın gerçəkləşdirdiyi "Xocalıya Ədalət" kampaniyası bu gün Xocalı hadisələri barədə dünya ictimaiyyətini məlumatlandırmaq və beynəlxalq-hüquqi tanınmasına nail olmaq məqsədilə Avropa, Asiya, Afrika, Şimali və Cənubi Amerika ölkələri tərəfindən Xocalı soyqırımının tanınmasını təmin etməkdədir. Bu günlərdə BMT Baş Məclisinin 69-cu sessiyasında "Soyqırımı qurbanlarının xatirəsinin anılması və soyqırımı cinayətinin qarşısının alınması üzrə beynəlxalq gün" adlı qətnamə qəbul edilib.

Təəssüf ki, bu gün uzun sürən sülh danışıqları, nüfuzlu beynəlxalq təşkilatların–BMT, Avropa Şurası, ATƏT-in Minsk qrupu və digər qurumların səyləri, problemin həllində vasitəçilik missiyası heç bir nəticə vermir.

BMT Təhlükəsizlik Şurasının 1993-cü il 822, 853, 874, 884 saylı qətnamələri, habelə Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsi olan işğal olunmuş Dağlıq Qarabağla bağlı münaqişənin həll edilməsi, regionda sülh və təhlükəsizliyə təhlükə yaradan bütün hərbi əməliyyatların dayandırılması, atəşkəsin təmin olunması, həmçinin bütün işğalçı erməni qüvvələrinin Azərbaycan torpaqlarından qeyd-şərtsiz çıxarılmasını nəzərdə tutan BMT Baş Assambleyasının 14 mart 2008-ci il tarixli qətnaməsi, Avropa Şurası, ATƏT tərəfindən qəbul edilmiş beynəlxalq hüquqi sənədlər hələ də icra olunmur. Postsovet məkanında olan heç bir başqa münaqişə ilə bağlı BMT Təhlükəsizlik Şurası çoxsaylı qətnamə qəbul etməmişdir. Əlbəttə, bu isə nüfuzlu beynəlxalq təşkilatların sülhün və təhlükəsizliyin bərpası istiqamətində apardıqları siyasətə kölgə salır, onlara inamı azaldır.

Ölkə başçısı cənab İlham Əliyev Nazirlər Kabinetinin 2015-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasda çıxış edərək demişdir: "Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli işində heç bir irəliləyiş yoxdur. Ermənistan sadəcə olaraq danışıqlar prosesini boykot edir və çalışır ki, bu məsələni maksimum dərəcədə uzatsın..."

Beynəlxalq arenada münaqişələrin həll olunması üçün ölkəmiz öz töhfəsini verməklə, sülhməramlı qüvvələrini müharibə ocaqlarında atəşkəsin, əmin-amanlığın təmin olunması üçün səfərbər etmiş, sülhə nail olmaq üçün güclü ordu formalaşdırmışdır.

Eyni zamanda haqq və ədalət hissini itirməyən dünya ictimaiyyəti, hökumətlər Azərbaycanın haqlı mövqeyini dəstəkləyir, xalqımıza qarşı törədilmiş faciələr, soyqırımı aktları dövlətlər, onların parlamentləri tərəfindən tanınır.

Azərbaycan dövləti haqq və ədalət, tolerantlıq prinsiplərinə söykənərək ölkəmizdə insan hüquqlarının təmin olunması istiqamətində davamlı olaraq strateji sənədlər qəbul edir və uğurla həyata keçirir.

Təqdirəlayiq haldır ki, Azərbaycan Respublikası Prezidentinin 28 dekabr 2006-cı il tarixli Sərəncamı ilə təsdiq edilmiş İnsan Hüquqlarının Müdafiəsi üzrə Milli Fəaliyyət Planının 39-cu bəndində, habelə 27 dekabr 2011-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş Azərbaycan Respublikasında İnsan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramının (MFP-nin) isə 4.10-cu bəndində də "Əhalinin hüquq düşüncəsinin və hüquq mədəniyyətinin inkişaf etdirilməsi, ayrı-seçkiliyin yolverilməzliyi, sülh və dözümlülük mədəniyyətinin, xalqımızın milli-mənəvi dəyərlərinin təbliği məqsədilə maarifləndirmə tədbirlərinin keçirilməsi" aidiyyəti qurumlar üçün bir vəzifə kimi təsbit olunmuşdur. Hazırda bu sənədlərə əsaslanmaqla yerli və mərkəzi icra hakimiyyəti orqanları, beynəlxalq təşkilatlar, QHT və KİV-lə əməkdaşlıqda geniş fəaliyyət həyata keçirilməkdədir.

Ənənə halını almış "Sülh aylığı" çərçivəsində Ombudsmanın təşəbbüsü ilə müvafiq mərkəzi və yerli icra hakimiyyəti orqanlarına, beynəlxalq təşkilatlara, QHT və KİV-ə, icmalara müraciətlər ünvanlanaraq, müxtəlif silsilə tədbirlərin davamlı keçirilməsi tövsiyə olunur ki, bu da özlüyündə sülh mədəniyyətinin təbliğinə, insanların sülh diləyinin təcəssümünə mühüm töhfələr verir.

"Sülh aylığı" çərçivəsində müxtəlif qurumlara ünvanlanmış müraciətlər respublikamızın hər bir rayon və şəhərində fəallıqla həyata keçirilmişdir.

Bu Aylıq çərçivəsində Ədliyyə Nazirliyi tərəfindən Ədliyyə Akademiyasında, cəzaçəkmə müəssisələrində insan hüquqlarının qorunması, o cümlədən əhalinin hüquq düşüncəsinin və hüquq mədəniyyətinin inkişaf etdirilməsi, sülh və dözümlülüyün təbliği istiqamətində müxtəlif tədbirlər təşkil edilmişdir. Bundan başqa, sülh və dözümlülüyün təbliği məsələlərində əhəmiyyətli vasitələrdən biri olan ictimai iştirakçılıq mexanizminə diqqət yetirilərək, Ədliyyə Nazirliyi tərəfindən "İctimai iştirakçılıqla bağlı sənədlər toplusu" dərc edilmiş, bir sıra qurumlara və vətəndaş cəmiyyəti təşkilatlarına təqdim olunmuşdur.

Müdafiə Nazirliyi tərəfindən Aylıq çərçivəsində hərbi hissə və xüsusi təyinatlı təhsil müəssisələrində, təmas xəttində yerləşən bölmələrdə şəxsi heyətlə görüşlərdə, hüquq hazırlığı dərslərində "İnsan hüquqları və azadlıqları", "Sülh və insan hüquqları", "Beynəlxalq humanitar hüquq", "Milli insan hüquqları təsisatları" mövzularında söhbətlər aparılmış, ayrı-seçkiliyə yolverilməzliyin, sülh və dözümlülük mədəniyyətinin, xalqımızın milli-mənəvi dəyərlərinin təbliği məqsədilə kursantlar və əsgərlər arasında tədbirlər keçirilmiş, kitab sərgiləri təşkil olunmuş, Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində "Sülhün bərqərar olması və insan hüquqlarının müdafiəsi dövlətin ali məqsədidir" mövzusunda zabit heyətinin iştirakı ilə konfrans keçirilmişdir. Tədbirlərdə ölkə başçısı, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab Ilham Əliyevin sülh naminə apardığı ardıcıl siyasəti şəxsi heyətə şərh edilmiş, Azərbaycan Respublikasının Konstitusiyasında, Hərbi Doktrinada və Silahlı Qüvvələr haqqında Qanunlarda sülhün bərqərar olunmasını özündə əks etdirən maddələrdən irəli gələn vəzifə və tapşırıqlar şəxsi heyətə çatdırılmışdır. Bununla yanaşı, Müdafiə Nazirliyinin mətbu orqanları olan "Azərbaycan Ordusu" qəzetində "Sülh bəşəriyyətə xoşbəxtlik gətirir", "Azərbaycan sülhün carçısıdır" və "Hərbi bilik" jurnalında "İnsan hüquq və azadlıqları" mövzusunda yazılar dərc edilmişdir.

Baş Prokurorluq tərəfindən verilən tapşırıq əsasında Bakı şəhər, bütün rayon (şəhər) və ərazi hərbi prokurorluq orqanlarında sülh və insan hüquqlarını təbliğ edən mövzular hər həftənin şənbə günləri keçirilən tədris məşğələlərində müzakirə edilmiş, eyni zamanda Təşkilat-analitik idarə tərəfindən "Sülh insan hüquqlarının təminatıdır" mövzusunda tədbir keçirilmişdir.

Aylıq çərçivəsində Daxili İşlər Nazirliyi və onun yerli polis orqanları tərəfindən peşə hazırlığı məşğələlərində şəxsi heyətə "Beynəlxalq sülh günü"nün yaranma tarixi və əhəmiyyəti, "İnsan hüquqları haqqında ümumdünya bəyannaməsi", insan hüquqlarını əhatə edən müxtəlif mövzular barədə məlumat verilmişdir.

Milli Təhlükəsizlik Nazirliyinin Heydər Əliyev adına Akademiyasında "Əsas insan və vətəndaş hüquqları və azadlıqları", "İnsan və vətəndaş hüquq və azadlıqlarının konstitusiya təminatı", "İnsan hüquqları ilə bağlı beynəlxalq hüquqi aktların Azərbaycan Respublikasının qanunvericilik sistemində yeri" və s. mövzularda mühazirələr oxunmuş, sülh və insan hüquqlarını təbliği istiqamətdə maarifləndirmə işləri aparılmışdır.

Mədəniyyət və Turizm Nazirliyi tərəfindən respublikanın mədəniyyət mərkəzləri, onların filialları, Mərkəzi kitabxanalarda, Respublika Mədəniyyət Müəssisələri İşçilərinin Hazırlıq və İxtisasartırma Mərkəzində, Mədəniyyətşünaslıq üzrə Elmi-Metodiki Mərkəzdə və digər mədəniyyət müəssisələrində müxtəlif mövzularda dövlət orqanlarının nümayəndələrinin, alimlərin, ictimai xadimlərin, mədəniyyət işçilərinin, müəllim və şagirdlərin iştirakı ilə "dəyirmi masa" müzakirələri keçirilmiş, bir sıra mövzularda uşaqlar arasında inşa və rəsm müsabiqələri təşkil edilmişdir.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən Sağlamlıq İmkanları Məhdud Gənclərin Peşə Reabilitasiya Mərkəzində "Dünyamızı qoruyaq" adlı tədbir keçirilmişdir. Tədbirdə bu mərkəzin gənclərinin, eləcə də nazirliyin bu qəbildən olan uşaqlar üçün internat evlərinin, Müharibə və əmək əlilləri üçün pansionatın sakinlərinin sülh mövzusuna həsr olunmuş yaradıcılıq işlərindən ibarət "Biz sülh istəyirik" adlı sərgi və ədəbi-musiqili kompozisiya təqdim olunmuş və sərgidə sülh mövzusunda 200-dək əl işi nümayiş etdirilmişdir.

Fövqəladə Hallar Nazirliyinin tabeliyində olan qurumlarda müxtəlif tədbirlər həyata keçirilmiş, həmin tədbirlərdə ölkəmizdə insan hüquqları sahəsində aparılan islahatlar, fövqəladə halların qarşısının alınması və nəticələrinin aradan qaldırılması zamanı insanların müdafiəsinin təmin olunmasında nazirliyin fəaliyyəti və rolu mövzularında müzakirələr aparılmış, təbii və texnogen xarakterli fövqəladə hallar zamanı insan hüquqlarının qorunmasının vacibliyi qeyd edilmişdir.

Rabitə və Yüksək Texnologiyalar Nazirliyi tərəfindən "Yüksək texnologiyalar, internet və sülhün təminatı" mövzusunda keçirilən "dəyirmi masa"da sülhün və insan hüquqlarının təmin olunmasında yüksək texnologiyaların rolu ilə bağlı fikir mübadiləsi aparılmış, beynəlxalq təcrübə barədə məlumat verilmişdir.

Vergilər Nazirliyi tərəfindən keçirilən görüşlərdə əhalinin hüquq düşüncəsinin və hüquq mədəniyyətinin inkişaf etdirilməsi, ayrı-seçkiliyin yolverilməzliyi, sülh və dözümlülük mədəniyyətinin, xalqımızın milli-mənəvi dəyərlərinin təbliği barədə iştirakçılara ətraflı məlumat verilmiş, vergi ödəyicilərinin elektron qutularına bildirişlər göndərilmişdir. Eyni zamanda, "Sosial-iqtisadi hüquqların müdafiəsi: dövlət və vətəndaş məsuliyyəti" mövzusunda maarifləndirmə tədbiri, qaçqın və məcburi köçkün uşaqlar üçün "Sosial problemlərin həllinə yardım" layihəsi çərçivəsində kampaniyalar keçirilmiş və "Uşaqlar sülhə çağırır" mövzusunda uşaqların əl işlərindən ibarət sərgi təşkil edilmişdir.

Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi tərəfindən respublikanın müxtəlif bölgələrində məcburi köçkünlərin müvəqqəti məskunlaşması məqsədilə salınmış qəsəbələrdə və digər yığcam məskunlaşma obyektlərində yerli icra hakimiyyəti orqanlarının, təhsil müəssisələrinin, məcburi köçkün icmalarının iştirakı ilə tədbirlər keçirilmiş, iştirakçılara hüquq düşüncəsinin və mədəniyyətinin inkişaf etdirilməsi, ayrı-seçkiliyin yolverilməzliyi, sülh və dözümlülük mədəniyyəti, xalqımızın milli-mənəvi dəyərləri barədə geniş müzakirələr aparılmış və bu sahəyə dövlət qayğısı haqqında məlumatlar verilmişdir.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən Aylıq çərçivəsində paytaxtda və regionlarda "Məişət zorakılığı və qadın hüquqları", "İnsan hüquqları", "Doğma uşağına sahib ol!", "Sülh uşaqları", "Həmişə sülh olsun!", "Sülh inkişafın təməlidir", "Biz sülh istəyirik", "Bizim gücümüz birliyimizdədir" adlı tədbir, habelə "Sülh" mövzusunda uşaqların rəsm sərgisi təşkil edilmişdir.

Həmçinin Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi ilə birgə Xaçmaz rayonunda milli azlıqlar, etnik qruplar və digər millətləri təmsil edən ailələrin iştirakı ilə "Bizim gücümüz birliyimizdədir" adlı maarifləndirmə tədbiri keçirmişdir.

Bununla yanaşı, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi tərəfindən bir sıra şəhər və rayonlarda, o cümlədən hərbi hissələrdə və cəzaçəkmə müəssisələrində din xadimləri, dini icma sədrləri və ağsaqqalların iştirakı ilə "Dindarlar sülhün carçısıdır", "İslam sülh dinidir", "Azərbaycanda sülh və dözümlülük mədəniyyəti və milli-mənəvi dəyərlərin təbliği", "İnsan hüquqlarının müdafiəsi və sülhün möhkəmlənməsində dini icmaların rolu", "İnsan vəhdət dinidir", "İslamda sülh və tolerantlıq" və digər mövzularda tədbirlər keçirilmişdir.

Bu gün qloballaşma mədəniyyətləri və dinləri yaxınlaşdırır, özünü dinlə bağlı olaraq daha açıq şəkildə göstərir. Ona görə də din xadimlərinin vicdana çağırış, səbir, sülhün təmin olunması ilə bağlı təşəbbüsləri olduqca zəruridir.

Dövlət Statistika Komitəsi tərəfindən məsul əməkdaşların iştirakı ilə "Sülh və insan hüquqları" mövzusunda maarifləndirmə tədbiri keçirilmişdir.

Dövlət Miqrasiya Xidməti tərəfindən Bakı Regional Miqrasiya İdarəsində, Lənkəran Regional Miqrasiya İdarəsində və Şirvan Regional Miqrasiya İdarəsinin əhatə etdiyi Salyan şəhərində Xidmət işçilərinin və ictimaiyyətin iştirakı ilə maarifləndirmə tədbirlər keçirilmiş və həmin tədbirlər KİV-də işıqlandırılmışdır.

Müvəkkil tərəfindən Aylıq çərçivəsində tədbirlərin həyata keçirilməsi və ictimaiyyətin bu prosesə qoşulmasının təmin edilməsi məqsədilə şəhər və rayon icra hakimiyyətlərinə müraciət edilmişdir. Müraciətə əsasən regionlarda silsilə maarifləndirmə tədbirləri, inşa və rəsm müsabiqələri, sərgilər və idman yarışları təşkil edilmişdir.

QHT-lər tərəfindən də Bakı, Mingəçevir, Şirvan, Quba, Qəbələ, Şəmkir və başqa şəhər və rayonlarda "Sülhün və milli-mənəvi dəyərlərin möhkəmləndirilməsində QHT-lərin rolu" mövzusunda silsilə tədbirlər təşkil edilmişdir.

"Sülh aylığı" çərçivəsində Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin, Aparatın əməkdaşlarının və Ombudsmanın Gəncə, Şəki, Quba və Cəlilabada yerləşən və ətraf rayonları əhatə edən regional mərkəzlərinin iştirakı ilə silsilə tədbirlər Bakı şəhərində və respublikanın rayonlarında davam etdirilmiş və bununla bağlı mütəmadi olaraq KİV-lərə məlumat verilmişdir.

Ombudsman təsisatı Bakı Slavyan Universiteti ilə birgə professor və müəllim heyətinin, tələbələrin iştirakı ilə "Sülh və insan hüquqları" mövzusunda tədbir keçirmişdir.

Uşaqlar üçün ümumdünya hərəkatının respublikamızda geniş vüsət aldığı, on beş ilə yaxın müddətdə müntəzəm fəaliyyət göstərən, həmçinin Ombudsmanın uşaq hüquqları üzrə resurs mərkəzi olan Azərbaycan Uşaq və Gənclərin Sülh Şəbəkəsinin və Liderlik Məktəbinin gənc sülh elçilərinin sülh hərəkatının inkişafında və sülh mədəniyyətinin təbliği prosesində fəal iştirakı da respublikamızda uşaq və gənclərin iştirakçılığını təmin edən və bu sahədə formalaşmış ən yaxşı təcrübələrdəndir.

Bu günlərdə "Sülh aylığı"nın mühüm tədbirlərindən olan, Azərbaycan Uşaq və Gənclərin Sülh Şəbəkəsində keçirdiyi "21 sentyabr - Beynəlxalq Sülh Günü" mövzusuna həsr edilmiş tədbirdə uşaq və gənclər arasında sülh mədəniyyətinin, dözümlülüyün və tolerantlılığın təbliğinin, həmçinin onlara erkən yaşlarında tarixi hadisələrin və multikulturalizmin öyrədilməsinin vacibliyi diqqətə çatdırmışdır.

Ümumilikdə Aylıq çərçivəsində Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramının həyata keçirilməsinə məsul olan dövlət qurumları, şəhər və rayon icra hakimiyyətləri tərəfindən müxtəlif mövzularda çoxsaylı tədbirlər keçirilmiş, onlarla sərgilər və inşa müsabiqələri təşkil edilmişdir ki, bu da minlərlə insanı əhatə etmişdir.

BMT-nin bir sıra sənədlərində də, genosid ümumi beynəlxalq hüquq normalarını pozan bəşəriyyətin təhlükəsizliyi əleyhinə cinayət kimi dəyərləndirilir. BMT Baş Məclisinin 11 dekabr 1946-cı il tarixli 96 (1) saylı qətnaməsində genosidin beynəlxalq hüquq normalarını pozan, BMT-nin ruhuna və məqsədlərinə zidd cinayət olduğu elan edilir.

Genosid cinayətinin hüquqi əsası BMT Baş Məclisinin 9 dekabr 1948-ci il tarixli 260 (III) saylı qətnaməsi ilə qəbul edilmiş və bu il qəbul edilməsinin 65 ili tamam olan Genosid cinayətinin qarşısının alınması və cəzalandırılması haqqında Konvensiya ilə müəyyən olunmuşdur.

Müvəkkil BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığı nəzdində fəaliyyət göstərən İnsan Hüquqları Şurasının (İHŞ) ötən ilin martında Cenevrədə baş tutan 25-ci sessiyasının münaqişə şəraitində uşaq hüquqları mövzusuna həsr edilmiş iclasında bəyanatla çıxış edərək bildirmişdir ki, müharibə vəziyyətində uşaqların hüquqlarının pozulması BMT-nin Uşaq Hüquqları haqqında Konvensiyasına, "Müharibə qurbanlarının müdafiəsinə" dair Cenevrə Konvensiyasına və digər beynəlxalq hüquqi sənədlərə, habelə BMT-nin, Avropa Şurasının, Avropa İttifaqının münaqişənin sülh yolu ilə həllinə dair müvafiq qətnamələrinə riayət olunmamasının nəticəsidir.

Eyni zamanda qeyd olunmalıdır ki, İHŞ-nin 25-ci sessiyasının gündəliyi ilə bağlı Genosid cinayətinin qarşısının alınması və cəzalandırılmasına dair Konvensiyanın 65-ci ildönümü münasibətilə genosidin qarşısının alınmasına dair sessiyada həmin mövzu üzrə Müvəkkilin yazılı bəyanatı qurumun rəsmi sənədləri sırasına daxil edilərək internet səhifəsində yerləşdirilmiş və 250 nüsxədə çap etdirilərək iştirakçılar arasında paylanmışdır.

Bundan başqa, azərbaycanlı məktəblilər 9 yaşlı Farizin erməni hərbi snayperinin açdığı atəş və 13 yaşlı Aygünün ermənilər tərəfindən içinə partlayıcı qurğu yerləşdirilən oyuncaqla oynarkən partlaması nəticəsində həyatlarını itirməsi ilə bağlı Müvəkkil beynəlxalq təşkilatlara müraciətlər etmiş, azərbaycanlı şagirdlərin topladığı 310.000 imzanın BMT-nin Baş Katibinin uşaqlar və hərbi münaqişələr üzrə xüsusi nümayəndəsinə göndərilməsinə dəstək vermişdir.

Ümumilikdə Müvəkkil fəaliyyət dövrü ərzində 100-dən çox bəyanatla çıxış etmiş və nüfuzlu beynəlxalq təşkilatlara ünvanlamışdır. Həmin bəyanatlarda Azərbaycan dövlətinin sülhsevər siyasət yürütdüyü, respublikamızın Ermənistan, Dağlıq Qarabağ münaqişəsinin dinc vasitələrlə, beynəlxalq norma və prinsiplər əsasında, sülh yolu ilə həllinə tərəfdar olduğunu dəfələrlə bəyan etdiyi, lakin təcavüzkar Ermənistanın BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi dörd qətnamənin tələblərini kobud şəkildə pozmaqda davam etdiyi bildirilmişdir.

1997-ci ildən 100 illik tarixə malik olan Beynəlxalq Sülh Bürosunun üzvü olan, Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin dəstəklədiyi Azərbaycan Sülh və İnkişaf Alyansı müxtəlif dövlət orqanlarının, beynəlxalq təşkilatların, dini icmaların, QHT-lərin iştirakı ilə qarşılıqlı əməkdaşlığa əsaslanan və respublikamızda sülh hərəkatının formalaşdırılması istiqamətində əhalinin müxtəlif qruplarına (uşaqlara, gənclərə, qadınlara, ahıllara, milli azlıqlara, dini icma nümayəndələrinə) ünvanlanan fəaliyyəti ölkəmizdə müsbət təcrübə formalaşdırmaqdadır.

Hələ 1999-cu ilin may ayında Hollandiyanın Haaqa şəhərində keçirilmiş II Ümumdünya Sülh Konqresində ölkəmiz uşaqlar da daxil olmaqla 100 nəfərlik nümayəndə heyəti ilə təmsil olunmuşdur. Bu isə öz növbəsində dünyada sülh hərəkatı tarixinə töhfəsini verməklə yanaşı, həmin konqresdə iştirak etmiş Azərbaycan Sülh və İnkişaf Alyansı üzvlərinin də fəaliyyətinin güclənməsinə, ölkəmizin mövqeyinin dünya ictimaiyyətinə açıqlanmasına geniş imkanlar yaratdı.

Azərbaycanda tolerant mühitin qorunub saxlanılması və təşviqi dövlət siyasətinin prioritet istiqamətlərindən birini təşkil edir. Belə ki, Azərbaycan özünün tolerantlıq modeli ilə nümunəyə çevrilmişdir. Azərbaycan dözümlülük modeli də fərqlidir, yalnız dözümlülük deyil, həm də sıx əməkdaşlıq deməkdir. Ötən il ölkəmizdə "Dini tolerantlığın möhkəmləndirilməsi (Azərbaycan modeli, ATƏT regionu və onun hüdudlarından kənarda çağırışlar)" mövzusunda keçirilən beynəlxalq konfrans buna əyani sübutdur.

Bununla yanaşı, insanların mənəvi sərvətləri içərisində dinin fərqliliyi ondadır ki, o, dini mənsubiyyətindən asılı olmayaraq həmişə insanları dostluğa, həmrəyliyə, birliyə, əməkdaşlığa dəvət etmişdir. Biz indi də bunun şahidiyik. Getdikcə daha çox din adamı dinlərarası dialoqun zəruriliyini dərk edir və dəstəkləyir. Bu isə sülh, dözümlülük, tolerantlıq və xeyirxahlıq naminə əməkdaşlıq tələb edir.

Ümummilli Liderimiz Heydər Əliyevin sözləri ilə desək: "Tolerantlıq, dözümlülük çox geniş anlayışdır. O, həm insani münasibətlərin, həm insan cəmiyyətində gedən proseslərin, həm də dövlətlərarası, millətlərarası, dinlərarası münasibətlərin bir çox cəhətlərinə aiddir...

O təkcə dinlərin bir-birinə yaxınlaşması deyil, onların bir birinin adətlərinə, mənəviyyatına dözümlülük, mədəniyyətlərə dözümlülük deməkdir".

Bölgədə sülhün və təhlükəsizliyin bərqərar olmasında maraqlı olmayan müxtəlif dağıdıcı qüvvələr milli və dini ədavət toxumları səpir, qarşıdurma ocaqlarının saxlanılması üçün hər cür çirkin vasitələrə əl atırlar. Qafqazda sülhə və əmin-amanlığa təhlükə törədən bütün əməllərin qarşısının alınması hamımızdan sülh naminə daha sıx əməkdaşlıq tələb edir.

Biz gələcəyə inamla baxırıq və inanırıq ki, Azərbaycanın ərazi bütövlüyü bərpa olunacaq, qaçqın və köçkünlərimiz məcburi tərk etdikləri torpaqlarına qayıdacaq, bərpa olunmuş şəhərlərdə, kəndlərdə yenidənqurma və inkişaf proseslərinə qatılaraq həyat sürəcəklər. Bu inamın ciddi əsasları var. Ən əvvəl, tarixən qısa ya uzun çəkən münaqişələr, müharibələr hər zaman güclü liderlərin sarsılmaz iradəsi nəticəsində sülhlə nəticələnir.

Ölkə başçımız, Ali Baş Komandan cənab İlham Əliyevin sülhyönümlü siyasəti nəticəsində və rəhbərliyi ilə biz ərazi bütövlüyümüzü tam bərpa edəcək və üçrəngli Bayrağımızı hər bir azad olunmuş şəhər və rayonumuzda ucaldacağıq. ■